**Ətraflı məlumat, ərizə formaı və digər sənədlər üçün:**

Bakı şəhəri, Ziya Bünyadov prospekti, 38C, 1969-cu məhəllə
(+99412) 4040401
Çağrı mərkəzi 131
info@smb.gov.az

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

# “Startap” şəhadətnaməsi

www.smb.gov.az

## “Startap” şəhadətnaməsi nədir?

“Startap” şəhadətnaməsi - innovativ təşəbbüsə əsaslanaraq sahibkarlıq fəaliyyəti həyata keçirən mikro və kiçik sahikarlıq subyektlərinin bu fəaliyyətdən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad olunmalarına əsas verən hüquqi sənəddir.

## “Startap” şəhadətnaməsi üçün müraciət edən şəxslərə dair tələblər:

- mikro və ya kiçik sahibkarlıq subyekti olmalı;
- orta və iri sahibkarlıq subyekti olan təsisçilərin hüquqi şəxsdə payı 49%-dən çox olmamalı;
- rezident vergi ödəyicisi olmalıdır.

## Məhsul və ya xidmətə dair tələblər:

- məhsul (xidmət) gəlir və ya mənfəət əldə etmək məqsədilə istehsal
- olunmalı;

innovativ təşəbbüsə əsaslanmalıdır.

## “Startap” şəhadətnaməsinin üstünlüyü:

“Startap” şəhadətnaməsi mikro və kiçik sahibkarlıq subyektlərini şəhadətnaməni aldıqları tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir.

## Müraciət qaydası:

“Startap” şəhadətnaməsi almaq üçün mikro və kiçik sahibkarlıq subyektləri yazılı formada və ya elektron qaydada (info@smb.gov.az) Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət etməlidir.

Müraciətə 30 gün müddətində baxılır və qiymətləndirilməsi üçün Ekspertlər Şurasına təqdim olunur. Ekspertlər Şurasının rəyi əsasında KOBIİA“Startap” şəhadətnaməsinin verilməsi və ya verilməsindən imtina olunması barədə qərar qəbul edir.